## *Şəhidlərə*

Sizə əmdiyiniz süd halal olsun,
Arzunuz sabaha açılan izdir.
Şəhidlər, qəbriniz işıqla dolsun,
Uca dağlarımız abidənizdir!

Qalan nəsilsiniz, yaşayan soysuz,
Sizə gül ehsanı verir bahar da!
Coxunuz can verdi murazsız, toysuz,
Şəkliniz asıldı yasxanalarda!

Yurdumuz-yuvamız yas tutub sizə,
Ananız-atanız tez qocalacaq!
Vətənin qəlbində abidənizsə
Bütün ehramlardan uca olacaq!

Ay ana, az ağla, gözdən olarsan!
Istərəm kor olub, mən gözsüz qalam!
Ay ana, nəyindir bu şəhid cavan?
Madarım, nübarım, murazsız balam!

Ay ata, boğuldun yaş leysanında,
Qalx, danış dərdini, qoy mən də bilim!
Dərdlisən, gəl otur dərdli yanında!
Dikələ bilmirəm, sınıbdır belim!

Yaslı qız, bir hovur səbr eləsənə!
Təsəlli nakamın deyil gərəyi!
Öz nübar eşqindən nə qaldı sənə?
Şəhid nişanlımın qanlı köynəyi!

Bülbül, səsin gəlmir, bəlkə dardasan?
Mən dilə gəlirəm gülün yanında!
Bülbül soraqdadır, a gül, hardasan?
Bitmişəm şəhidlər xiyabanında!

Tankların altında qanına qəltan
Olan cavanların susdu ürəyi!
Yarana sarınsın, ey Azərbaycan,
Nakam qurbanların qanlı köynəyi!

Işığın zülməti boğur, ey Vətən,
Yaranın gözüdür  o qızaran dan!
Şəhidlər qanının bahasına sən
Keçirsən azadlıq astanasından!

Gül-çiçək ətrinə bürünüb aləm,
Taxtında əyləşən yazdır, inandım.
Istədim bahara qoşulub güləm,
Vətəndən utandım, eldən utandım!

Damlalar budaqda işarır dən-dən,
Kirpikdən asılıb sanki hər gilə.
Elə bil süzülüb ana gözündən,
Yoxsa büllur kimi olmazdı belə!

Bahara söylədim : - Hüsnünə alqış,
Yoxluğun etmişdi bağrımı şan-şan.
O dedi : - Qəsdinə dayanmışdı qış,
Qanını tökdün ki, mənə çatasan!

Dedim : - Tələsmisən bu il, qaranquş,
Qoyardın soyuqlar sınaydı bir az!
Dedi : - Tələsməyi bahar buyurmuş,
Şəhidlər yasına gecikmək olmaz!

Qırdınmı dilindən qıfılı, çeşmə?
Gücümü təzəcə eləyirəm cəm!
Zil ötüb yaramın gözünü eşmə!
Bu il həzin-həzin ağı deyəcəm!...

Tutuldum baharla bu görüşümdən,
Sanki gözəlliyi gözüm görmədi.
Bir kitab söz qoşdum mən öz döşümdən,
Nəğməm ürəklərə sevinc vermədi!

Körpə çiçəklərdən bir çələng hördüm,
Qəbirlər üstündə solub bürüşdü.
Qönçənin qızaran bağrını gördüm,
Şəhid yaraları yadıma düşdü!..

Adlaya bilmədim şər hasarından,
Qönçə yaxasıtək qızardı bağrın.
Qoy öpüm qan sızan yaralarından,
Bir an hec olmasa toxtasın ağrın!

Susdu diləklərlə dolu ürəklər,
Əcəl qismətini alıb sovuşdu.
Səninlə baş-baça verib küləklər,
Qurban gedənlərə oxşama qoşdu!

Dözmərəm qarşıma hüzürlü çıxsan,
Çox da özün boyda bir xiffətin var!
Sən axı meydanda əliaçıqsan,
Qurbanlar verməkdə səxavətin var!

Su olub, qoymaram belə yanasan,
Tüstün bir ellikdir, odun bir sinə.
Sən axı Babəki doğan anasan,
Sızıltı yaraşmaz Qorqud nəslinə!

Qismətin olsa da acı qan-qada,
Ağ saçlı başına qara bağlama.
Dərin yaraların sızıldasa da,
Ağlama, ağlama, anam, ağlama!

Övladam, bələdəm ana səbrinə,
Bilirəm, ağrısız olmayacaqsan.
Nakam şəhidlərin and iç qəbrinə,
Bir də saçlarını yolmayacaqsan!

Bilirəm, dar gündə dəyanətin var,
Əlini ümiddən üzə bilməzsən!
Övlad itkisinə dözümün çatar,
Torpaq itkisinə dözə bilməzsən!

Azərtürk A. Şəhidlərə : şeir // Ulduz. – 1991.- № 1. – S. 38.